# HƏQİQƏTİN HAQQI



*Əli Rza XƏLƏFLİ*

**Amerikada yaşayan azərbaycanlı professora - Azər Əhmədova məktub**

Əzizim Azər bəy... sanki sizinlə birgə gəzdim muzeyi... çox əhatəli, üstəlik bəşəri dəyər meyarları ilə yazmısan... Çoxlu məsələlər oldu ki, fikir və düşüncələri, formalaşmış qənaətləri silkələyir...

Ancaq... iki məqam isə unudulmur... Axundovun və Zərdabinin dini xurafata qarşı yandırdıqları maarif işığının zəifləməsi o həddə çatıb ki, cüzi üfürmə ilə sönə bilər...

Azər bəy... indi bizdə pir istehsalı gedir... Tarixi abidələrin tarixi əhəmiyyətini öyrənmək əvəzinə fövqəl güc uydurulur... Bu yöndən təbliğ olunur...

Təsəvvür elə Həmid Herisçi kimi mütəfəkkir bir yazıçı televiziyanı mistika təbliğ etmək vasitəsinə çevirib... uzun müddət vahimə qorxu aşılayan dini təsəvvürlər aşılamaqla məşğul oldu. ...Bir də sərfəli olmayan həqiqətlərin haqqı məsələsi... çox sərrast ifadə etmisən...

Başqa çox mətləblər var... çox istəyirlər ki, Azərbaycanı 90-cı illərə qaytarsınlar...

Qardaş acılıqlarını unutmadığım o günlərə qayıtmaq çox dəhşətlərə yol açardı... Biri özünü hüquq müdafiəçisi kimi Londondan iftira üfürür-deyir: "Bir nəfər kimi səfərbərliyə gedib ələ silah keçirin... O silahı biz Azərbaycana qarşı çevirərik... sonra erməni ilə danışmaq asan olar..." Bu gözünü qərəz örtmüş kəs elə bilir bəlkə erməni onu gözləyəcək. Silah gücünə hakimiyyətə gəlsin... sonra bizim torpaqları sinidə qaytarar... bunu niyə yada saldım. Həmin şəxs də özünü insan haqlarının müdafiəçisi bilir, guya demokratdır... Beləlləri həqiqi demokratik mübarizənin və həqiqi demokratların üzərinə kölgə salır... Bir də burada dini fanatizm az qala ruhumuzu canımızdan məcbur çəkib almaqdadır fb də isə az qala qoşun saxlayırlar...

Burada da sərfəli olmayan həqiqətləri demək olmur... özünü müx... adlandıran qüvvələr var ki, söyüş silahını qorxunc pandemiyaya çeviriblər...

Sənin azad düşüncə ilə yazmağın məni qürurlandırır...

İcazə versən sənin Kanada muzeyindən düşüncələrini çap edərəm...

**P.S.** Azər bəy... Yazıçılar Birliyi haqda fikrin bir qədər mənə mübahisəli göründü... Burada Yazıçılar Birliyini fövqəlgüc kimi təsəvvür edib çox şey umanlar var... ancaq elə deyil, bu sıradan bir ictimai təşkilatdır... dövlət sadəcə dəstək verir...

**P.S.S.** Düşünürəm ki, sənədlərini göndərsən Sənin çox güclü istedad və yazı imkanlarına görə Birliyə mütləq üzv qəbul edərlər...

...Ancaq özün də yaxşı bilirsən, Yazıçılar Birliyi kimsəyə istedad bəxş etmir...

***22.09.2020***

Kredo 2020.- 8 oktyabr.- S.2.